© R.N.Kərimov, 2009

# AİLƏ-NİKAH MÜNASİBƏTLƏRİNİN REGİONAL-COĞRAFİ XÜSUSİYYƏTLƏRİ (AZƏRBAYCANIN TİMSALINDA)

**R.N.Kərimov**

*AMEA akad.H.Ə.Əliyev адына Coğrafiya İnstitutu*
*AZ1143, Bakı, H.Cavid prosp., 31*

Məqalədə Azərbaycan əhalisi arasındakı nikah və onunla bağlı olan demoqrafik proseslərin uzunmüddətli gedişatının təhlili verilir. Tədqiqat işində nikah, boşanma proseslərinə təsir edən amillər ölkənin şəhər və kənd əhalisi üzrə öyrənilir, nikah və boşanmaların dinamikası araşdırılır. Aparılan araşdırmalar əsasında müəllif bir sıra nəticələrə gəlir.

**Mövzunun aktuallığı.** Nikah və boşanma hallarının, onların xarakterinin, coğrafi xüsusiyyətlərinin öyrənilməsi əhali coğrafiyası sahəsində aparılan tədqiqatlar arasında xüsusi yer tutur. Nikah və boşanma proseslərinin öyrənilməsi həm də demoqrafik proseslərin, xüsusilə doğum prosesinin, ailə planlaşdırılmasının tənzimlənməsi baxımından praktiki əhəmiyyət kəsb edir.

İnsanların nikah bağlaması ictimai zərurətdən irəli gələn mühüm sosial-demoqrafik proses olmaqla, doğuma və təbii artıma, bununla da əhalinin sayına, onun tərkibinə əhəmiyyətli təsir göstərə bilir. Nikah bağlamanın əksi olan boşanma prosesi də əhalinin kəmiyyət və keyfiyyət göstəricilərinə təsir edən amil rolunu oynayır. Nikah və boşanma proseslərinin bütövlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun nizamlanması, ailə institutunun mənəvi-əxlaqi dəyərlərinin təbliği və müdafiəsi, sağlam həyat şəraitinin formalaşdırılması Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasının tərkib hissəsidir.

**Tədqiqatın məqsədi** son 60 illik müddət ərzində, xüsusilə son 20 ildə Azərbaycanın əhalisi arasında baş verən nikah və boşanma proseslərinin dinamikasını, bu proseslərə təsir göstərən amilləri öyrənmək, öyrənilən proseslər üzrə baş verən meyilləri aşkara çıxarmaqdır.

Azərbaycan əhalisi arasında nikah səviyyəsi 50-ci illərin ikinci yarısı və 60-cı illərin əvvəllərində, eləcə də 80-ci illərdə daha yüksək olmuşdur. 90-cı illərin əvvəllərində sosial-iqtisadi böhran, Qarabağ müharibəsi, işğal altında olan rayonların əhalisinin qaçqın və məcburi köçkünlərə çevrilməsi, əhalinin, o cümlədən gənclərin bir hissəsinin respublikadan getməsi ilə əlaqədar nikah bağlamanın səviyyəsi nəzərə çarpan dərəcədə aşağı düşmüşdü. Əhalinin 1000 nəfərə olan nikah əmsalı orta hesabla 1980-1989-cu illərdə 10,1 olduğu halda, 1990-2000-ci illərdə 7,0-a enmişdir (1-ci şəkil).

Şəhər və kənd yaşayış məntəqələri nikah və boşanmanın səviyyəsinə görə fərqlənirlər. Şəhər əhalisi arasında təhsil səviyyəsini artırmaq istəyinin daha yüksək olması, kənd və şəhər ailələrinin ictimai-məişət həyatının fərqlənməsi, şəhərlərdə mənzil probleminin daha çox müşahidə olunması, boşanmaya ictimai münasibətin kənd və şəhər yerlərində müxtəlif olması kimi amillər bu iki prosesin həmin yaşayış məntəqələrindəki gedişinə təsir göstərir. Azərbaycanda şəhər və kənd yerləri üzrə nikah bağlamanın səviyyəsi ayrı-ayrı dövrlərdə fərqlənmişdir. 80-ci illərə qədər nikah əmsalı şəhər əhalisi üzrə nisbətən çox olmuşdur. Belə vəziyyət digər respublikalarda olduğu kimi, Azərbaycanda da aparılan urbanizasiya və sənayeləşdirmə siyasəti ilə bağlı olmuşdur. Belə ki, bu siyasətin nəticəsi olaraq, kənd yerlərindən subay əhalinin bir hissəsinin işləmək, yaxud da ali və orta ixtisas təhsili almaq üçün şəhərlərə getməsi və sonralar şəhərlərdə qalaraq işlə təmin olunmaları və orada ailə qurmaları müşahidə edilmişdir. 80-ci və 90-cı illərdə nikah bağlamanın səviyyəsi tədricən kəndlərdə daha yüksək olmuşdur. 2000-2007-ci illərdə nikah əmsalı üzrə yüksəlmə tendensiyası müşahidə edilmiş — 1000 nəfərə 7,3 nikah düşmüşdür. Son 3 ildə, yəni 2005-2007-ci illərdə isə müvafiq göstərici 9,3-ə çatmışdır. Həmçinin son illər şəhərlər və kəndlər arasında nikah əmsalına görə olan fərq azalmışdır (2007-ci ildə müvafiq olaraq 9,6 və 9,8). Bununla belə, yenə də kənd yaşayış məntəqələrində nikah bağlama səviyyəsinin bir qədər yüksək olması diqqəti cəlb edir.

Son illərdə gənclərin ailə qurması prosesinin sürətləndirilməsi müşahidə olunur. Bunun səbəbi respublikanın sosial-iqtisadi inkişafı ilə əlaqədar əhalinin yaşayış səviyyəsində baş verən irəliləyişlərdir. Şəhərlərdə yaşayış binalarının tikintisinin genişlənməsi, tikinti materialları istehsalının, idxalının və bazarlarda satışının genişlənməsi və bununla da qəsəbə və kəndlərdə fiziki şəxslər tərəfindən fərdi yaşayış evlərinin tikintisinin sürətləndirilməsi gənclərin mənzil probleminin həll olunmasına öz müsbət təsirini göstərmişdir. Bu da öz növbəsində nikah bağlamanın səviyyəsini yüksəldən amil rolunu oynamışdır. Təkcə onu qeyd etmək kifayətdir ki, 2007-ci ildə Azərbaycanda nikah bağlama hallarının sayı 1999-cu illə müqayisədə 2,2 dəfə, o cümlədən son 5 ildə 2 dəfə artmışdır.

Qeyd etmək lazımdır ki, ölkədə aparılan demoqrafik siyasət də nikah və boşanma proseslərinə əhəmiyyətli təsir göstərir. Məsələn, ailə qurmaq hüququna malik olma üçün müəyyən edilən aşağı yaş həddinin yüksəldilməsi nikah bağlamanın səviyyəsini azaldır. Erkən nikah bağlamanın geniş yayılması doğum səviyyəsinin yüksəlməsinə səbəb olur və əksinə. Boşanma hallarının çoxalması isə doğumun səviyyəsinə mənfi təsir göstərir. Azərbaycanda 17 yaşından yuxarı qadınlar və 18 yaşından böyük kişilər nikah bağlama hüququna malikdirlər. Bununla belə, əhalinin mədəni və təhsil səviyyəsinin nisbətən yüksək olduğu Azərbaycanda erkən və nisbətən aşağı yaşda ailə quranların sayı xeyli azdır. 1999-cu ildə aparılmış siyahıyaalınmaya əsasən, ölkədə 16-24 yaşlı əhalinin 79%-ni, 16-19 yaşda olanların isə 92%-ni nikahda olmayanlar təşkil edir. Birinci nikaha daxil olanların orta yaşı 2007-ci ildə kişilər üçün 27,4, qadınlar üçün isə 23,3 nəfər təşkil etmişdir ki, bunlar da bir sıra Şərq ölkələri ilə müqayisədə aşağı göstərici hesab oluna bilməz.

Son 50 ildən artıq müddətdə Azərbaycanın əhalisi üzrə boşanmanın səviyyəsində də dəyişikliklər baş vermişdir (2-ci şəkil). 50-ci illərdə və 60-cı illərin birinci yarısında boşanmanın səviyyəsi nisbətən aşağı olmuş, 60-cı illərin ikinci yarısında yüksəlmiş və 90-cı illərə qədərki dövrdə nisbətən sabit qalmışdır. 1990-cı ildə əhalinin 1000 nəfərinə düşən boşanmaların sayı maksimuma çatmış, 2,0-a bərabər olmuşdur. Belə vəziyyətin müşahidə olunmasına əsasən, fərqli millətlərin nümayəndələrinin birgə (Qarabağdakı məlum hadisələrdən sonra azərbaycanlılarla ermənilərin, SSRİ dağıldıqdan sonra əhalinin emiqrasiyası nəticəsində azərbaycanlılarla rusların və s.) qurduqları ailələrin dağılması, respublikadakı ictimai və iqtisadi böhran təsir göstərmişdir. Sonrakı illərdə boşanma hallarının sayı azalmış, 1993-2004-cü illərdə 1000 nəfərə düşən boşanmaların orta illik sayı 0,8-ə enmişdir. Boşanmanın səviyyəsi ölkənin şəhərlərində kəndlərə nisbətən həmişə yüksək (3-5 dəfə və daha çox) olmuşdur. Qeyd etmək lazımdır ki, boşanma əmsalının son bir neçə ildə artması müşahidə olunmuşdur. Buna xeyli dərəcədə nikah bağlamaların sayının artması təsir göstərmişdir. Belə ki, yeni ailə quranların sayının artması ilə onların bir qisminin boşanması ehtimalı da yüksəlmiş olur. Kənd yerlərində boşanma hallarının çoxalması da narahatlıq doğurur. 2004-2007-ci illərdə boşanmaların sayı 21%, kənd əhalisi üzrə xeyli çox — 72% artmışdır. Bununla belə, onu da qeyd etmək lazımdır ki, kəndlərdə boşanmanın səviyyəsi şəhərlərlə müqayisədə kifayət qədər aşağıdır.

Azərbaycanın regionlarında və iri yaşayış məntəqələrində nikah və boşanmaların dinamikasını müqayisəli şəkildə öyrənmişik. Məlum olmuşdur ki, nikah əmsalına görə, iqtisadi rayonlar arasında Abşeron (hər 1000 nəfərə 10,2), Dağlıq Şirvan (10,1), Quba-Xaçmaz iqtisadi rayonları (10,0) və Bakı şəhəri ərazi vahidi (10,0) irəlidədir. Bu göstəriciyə görə geridə qalan iqtisadi rayonlar isə Dağlıq Qarabağ (7,8) və Gəncə-Qazaxdır (8,6). Boşanma əmsalına gəldikdə isə, bu göstərici Lənkəran iqtisadi rayonunda (hər 1000 nəfərə 0,5) və Abşeronda (1,2) nisbətən aşağıdır.

İri şəhərlərə gəldikdə isə, 90-cı illərə qədər ilk növbədə Bakı, eləcə də Lənkəran, həmçinin Şirvan, Yevlax, Xankəndi şəhərləri nikah səviyyəsinin nisbətən yüksək olması ilə seçilmişlər. Bakı şəhərində nikah əmsalının yüksək olması burada iş və yaşayış yeri ilə (mənzillə) təmin olunma imkanlarının digər şəhərlərlə müqayisədə daha geniş olmasının nəticəsi idi. Oxşar vəziyyətin Lənkəranda müşahidə edilməsi isə həmin şəhərin yerləşdiyi regionun əhalisinin etnik-ənənəvi xüsusiyyətləri ilə bağlı olmuşdur. 90-ci illərdə bu və digər şəhərlərdə nikah əmsalının qiyməti 1,5-3,5 dəfə aşağı düşmüş, nikah əmsalına görə ayrı-ayrı şəhərlər arasındakı fərq azalmışdır. Bakı, Lənkəran, Yevlax, Şirvan şəhərlərində nikah səviyyəsi digər şəhər və regionlara nisbətən yüksək olaraq qalmaqdadır.




**1-ci şəkil.** Azərbaycanın əhalisi arasında 1000 nəfərə olan nikah əmsalı




**2-ci şəkil.** Azərbaycanın əhalisi arasında 1000 nəfərə olan boşanma əmsalı

Boşanma əmsalına gəldikdə isə, bu göstərici uzun müddət qeyri-azərbaycanlıların (rusların, ukraynalıların, ermənilərin və s.) xüsusi çəkisinin nisbətən yüksək olduğu Bakı, eləcə də Sumqayıt, Mingəçevir, Xankəndi şəhərlərində daha yüksək olmuşdur. 90-cı illərin əvvəllərində sosial-iqtisadi və siyasi böhranla əlaqədar olaraq, bütün yaşayış məntəqələrində boşanmanın səviyyəsi nəzərə çarpan dərəcədə artmışdır. Lakin 90-cı illərin ikinci yarısında nikah bağlamanın azalmasına uyğun olaraq, boşanmanın da səviyyəsi aşağı enmişdir. Son bir neçə ildə isə nikah səviyyəsinin artması boşanmanın səviyyəsinə də yüksəldici təsir göstərmişdir. Urbanistik həyat

tərzinin daha geniş yayıldığı Bakı, eləcə də Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərində boşanmanın səviyyəsi hazırda da nisbətən yüksəkdir.

Azərbaycanda nikah və boşanma prosesləri üzrə son illər müşahidə olunan meyillər, gəldiyimiz nəticələr aşağıdakı kimi ümumiləşdirilə bilər:

— Son 20 illik müddətdə Azərbaycanda nikah bağlamanın səviyyəsi əhalinin yaşayış səviyyəsinə düz mütənasib olaraq dəyişmişdir. Yəni əhalinin maddi vəziyyəti yaxşılaşdıqca, nikah bağlamanın səviyyəsi də müvafiq şəkildə yüksəlmişdir. Göstərilən müddətdə nikah bağlamanın səviyyəsinə görə şəhərlər kəndlərdən əsasən geri qalmışdır. Bununla belə, nikah əmsalına görə onlar arasındakı fərq hazırda nisbətən azdır.

— Ötən əsrin 90-cı illərində nikah bağlamanın səviyyəsi kəskin şəkildə (80-ci illərlə müqayisədə təxminən 2 dəfəyədək) aşağı enmişdir. Qeyd olunan dövrdə boşanma əmsalı da aşağı düşmüşdür. 2000-2007-ci illərdə nikah əmsalında 2 dəfədən də çox artım müşahidə olunmuş, müvafiq göstəricilər 90-cı illərin əvvəllərində olan göstəricilərə yaxınlaşmışdır. Bu, sosial-iqtisadi inkişafın sürətlənməsi, əhalinin maddi vəziyyətinin tədricən yaxşılaşması hesabına baş vermişdir. 2005-2007-ci illərdə istər şəhər, istərsə də kənd əhalisi arasında boşanmanın səviyyəsi artmışdır. Kənd əhalisi arasında boşanmanın ən yüksək göstəricisi (1000 nəfərə 0,5 boşanma) qeydə alınmışdır.

— Son illər ölkədə çoxlu sayda yaşayış binaları tikilib istifadəyə verilsə də, əhalinin, o cümlədən gənclərin xeyli hissəsi özlərini mənzillə təmin etməkdə çətinlik çəkir, bu da onların ailə qurması prosesini gecikdirir — nikah halları azalır. Respublikada əhaliyə ipotekaların verilməsi həyata keçirilsə də, təəssüf ki, bu proses hələ də problemin qismən həll edilməsi ilə müşayiət olunmuşdur. Bu isə ipotekaların verilməsi mexanizmi ilə əhalinin maddi vəziyyəti arasındakı uyğunsuzluqdan irəli gəlir.

— Əhalisinin yarısının kənd sakinlərindən ibarət olmasına baxmayaraq, son illər Azərbaycanda boşanmaların sayının artması istər ölkənin ailə planlaşdırılması strategiyası, istərsə də sosial və demoqrafik baxımdan arzuolunmaz haldır. Buna görə də, hesab edirik ki, boşanmanı qanuniləşdirən şərtlərin yenidən nəzərdən keçirilməsi, boşanmadan sonra uşağın himayəsi məsələsinin həm əlverişli demoqrafik situasiya, həm də cəmiyyətin mənafeyi baxımından həll olunması zəruridir.

## ƏDƏBİYYAT

AZƏRBAYCAN RESPUBLIKASI əhalisinin siyahıyaalınması. 1999. I., II.1., II.2. hissələr. 2000. Bakı.

AZƏRBAYCAN RESPUBLIKASININ Demoqrafik İnkişaf Konsepsiyası. 6 dekabr, 1999-cu il.

AZƏRBAYCANIN DEMOQRAFIK göstəriciləri. 2002. Səda. Bakı.

AZƏRBAYCANIN ƏHALISI (2000-2008-ci illər). 2005. Səda. Bakı.

НЕКОТОРЫЕ ДЕМОГРАФИЧЕСКИЕ и социально-экономические показатели Азербайджанской Республики за 10 лет. 1991. Баку.

***Məqaləyə akademik B.Ə.Budaqov rəy vermişdir***